*Müstəqil Azərbaycanın qurucusu olan ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında ən böyük xidmətlərindən biri də ölkəmizdə konstitusionalizm ideyalarının təşəkkülü, dövlətçilik tariximiz üçün tam yeni olan Konstitusiya nəzarəti institutunun yaranması və onun inkişafı olub.*

# Konstitusiya Məhkəməsi ölkəmizdə demokratiyanın və hüququn inkişafına layiqli töhfələr verir




1995-ci il noyabrın 12-də Prezident Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilib. Bu tarixi hadisə dövlətimizin hüquqi, siyasi və iqtisadi inkişafının gələcək istiqamətlərini müəyyənləşdirdi, əsas qanunları əks etdirən humanizm və demokratiya prinsipləri ilə ölkədə vətəndaşların hüquq və azadlıqlarının təmin olunması, dövlətçiliyin tərəqqisi üçün hərtərəfli zəmin yaratdı. Ümummilli lider Heydər Əliyevin gərgin əməyinin bəhrəsi olan tarixi və hüquqi sənədin suveren Azərbaycanın müstəqillik yolunda daha inamla addımlamasında, mədəniyyətimizin və digər milli mənəvi dəyərlərimizin qorunmasında, əhalinin rifahının təmin edilməsində rolu danılmazdır. Hər bir dövlətin sabit fəaliyyəti Əsas Qanunun müdafiəsini həyata keçirən konstitusiya nəzarəti olmadan mümkün deyil.

1998-ci il iyulun 14-də Prezident Heydər Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi təsis edilib.

Hər ölkədə konstitusiya nəzarəti konstitusiya müddəalarının aliliyini təmin edən vasitə olmaqla demokratik dövlətin mühüm atributu kimi qiymətləndirilir. Geniş mənada konstitusiya nəzarətinin əsas təyinatı dövlət orqanlarının Konstitusiyanın tələblərinə zidd hüquqi aktlarının qanunvericilik sistemindən çıxarılmasından və ya onların real konstitusiya-hüquqi məzmununun aydınlaşdırılmasından ibarətdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ölkəmizin Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır. Bu Məhkəmənin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir. Konstitusiya Məhkəməsinin fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Qanun, ölkənin digər qanunları və Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsi təşkil edir. Məhkəmənin səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 84-cü maddəsinin I hissəsi, 86-cı maddəsi, 88-ci maddəsinin I hissəsi, 101-ci maddəsinin V hissəsi, 102-ci maddəsi, 103-cü maddəsinin I hissəsi, 104-cü maddəsinin II və III hissələri, 107-ci maddəsi, 130-cu maddəsinin III - VII hissələri, 153-cü və 154-cü maddələri ilə müəyyən edilir. Konstitusiya Məhkəməsinin fəaliyyəti Azərbaycan Respublikası Konstitusiyasının aliliyi, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurulur. Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkilatı, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyil.



Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin I hissəsinə uyğun olaraq Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Konstitusiyanın 126-cı maddəsinin I hissəsinə uyğun olaraq yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola bilər.

2002-ci il avqustun 24-də keçirilmiş referendum nəticəsində Konstitusiyaya edilmiş əlavə və dəyişikliklər mühüm əhəmiyyətə malik olmuş və məhkəmənin fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına imkan vermişdi. Hazırda Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi geniş səlahiyyətlər dairəsinə malik müasir konstitusiya nəzarəti orqanıdır. Qeyd olunan nəzarətin yurisdiksiyasına normativ-hüquqi aktların geniş spektri daxildir. Bu isə bütün qanunvericilik sisteminə konstitusiya nəzarətini həyata keçirmək, Konstitusiya və qanun normalarının təfsiri vasitəsilə hüququn inkişafı və tətbiqi təcrübəsinin istiqamətləndirilməsi kimi əhəmiyyətli səlahiyyətlərdir. 2002-ci il konstitusiya islahatlarından sonra ayrı-ayrı şəxslərə, məhkəmələrə və Ombudsmana da Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ verilib. Bu dəyişikliklərdən sonra 2004-cü il yanvarın 8-də "Konstitusiya Məhkəməsi haqqında" qanun qüvvəyə minib və beləliklə də yeni subyektlər tərəfindən Konstitusiya Məhkəməsinə sorğu, müraciət və şikayətlərin verilməsi, onlara baxılması mexanizmləri müəyyənləşdirilib. Bütün bunlar ilk növbədə, Konstitusiya Məhkəməsinin timsalında hüquqların müdafiəsi üçün əhəmiyyətli bir vasitənin əldə edilməsidir.

Konstitusiya Məhkəməsi beynəlxalq əməkdaşlığa da hər zaman xüsusi önəm verib. Məhkəmə 2000-ci ildən etibarən Avropa konstitusiya nəzarəti orqanlarını birləşdirən Avropa Konstitusiya Məhkəmələri Konfransı Təşkilatının tamhüquqlu üzvüdür. Eyni zamanda milli Konstitusiya Məhkəməsi Avropa Şurası Venesiya Komissiyası, Almaniya Texniki Əməkdaşlıq Təşkilatı, ATƏT, Amerika Hüquqşünaslar Assosiasiyası, Qırmızı Xaç Komitəsi, Çin Hüquq Assosiasiyası və bir sıra beynəlxalq hökumət və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edir, Avropa Şurası Venesiya Komissiyası çərçivəsində konstitusiya məhkəmələrinin təcrübəsini əks etdirən xüsusi "Venesiya Forumu" adlanan şəbəkənin üzvüdür.

Konstitusiya Məhkəməsi Türkiyə, Rusiya, Almaniya, Avstriya, İtaliya, Bolqarıstan, Moldova, Ukrayna, Çin, İsrail, Koreya Respublikası, Cənubi Afrika Respublikası və bir çox digər Avropa, Asiya və Afrika ölkələrinin yüksək məhkəmə hakimiyyəti orqanları ilə ikitərəfli əməkdaşlıq həyata keçirir. Bütün bunlar Konstitusiya Məhkəməsinin təcrübəsini zənginləşdirməklə və onun qəbul etdiyi qərarlarda müasir hüquqi meyillərin tətbiqinə zəmin yaratmaqla həm praktiki, həm də nəzəri sahələrdə təcrübə mübadiləsinə geniş imkanlar açır.

Həyata keçirilən beynəlxalq əməkdaşlıq qarşılıqlı faydalı məzmun daşıyır, dünyada gedən sürətli inkişaf və inteqrasiya prosesləri bu əlaqələrin daha da genişləndirilməsini zəruri edir. Məhkəmə öz fəaliyyətində insan hüquqlarına dair digər beynəlxalq hüquqi sənədlərin müddəalarına da əsaslanır. Bu məhkəməyə icraatında olan işlərə baxarkən dünya birliyi tərəfindən qəbul edilmiş demokratik norma və standartlara riayət etmək imkanı yaradır.

Konstitusiya Məhkəməsi mövcud normativ-hüquqi aktlara əsaslanan fəaliyyəti və qəbul etdiyi qərarları ilə insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsində qanunvericilik və məhkəmə təcrübəsinin birliyini mühafizə edir.

Bu cür iki istiqamətli funksiya onu göstərir ki, konstitusiyanın aliliyinin təmin olunması hüquq və azadlıqların müdafiəsi ilə ayrılmaz və əlaqəlidir.

Ölkəmizdə demokratik hüquqi dövlətin möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi Konstitusiya Məhkəməsinin fəaliyyətinin əsas istiqamətidir. Bunlar məhkəmənin fəaliyyət predmetinə daxil olan normativ-hüquqi aktların Konstitusiyaya və eyni zamanda digər normativ-hüquqi aktlara uyğunluğunun müəyyənləşdirilməsinin əsas meyarlarıdır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan islahatlarla yanaşı, həm də demokratik-hüquqi islahatların keyfiyyətcə yeni mərhələsi yaşanır. Əldə edilmiş milli həmrəyliyin qorunması və möhkəmləndirilməsi, dövlət həyatının bütün sahələrinin inkişafının təmin edilməsi, demokratik nailiyyətlərə yönəlmiş ardıcıl addımlar Azərbaycan Respublikası Prezidentinin siyasətinin prioritetlərini təşkil edir. Konstitusiya Məhkəməsi də öz səlahiyyətləri çərçivəsində ölkəmizdə demokratiyanın və hüququn inkişafına bundan sonra da layiqli töhfələrini verəcək.

**Bayram SALMANOV,**
**"Respublika".**

Respublika .- 2024.- 14 iyul (№ 146).- S.2.